# 2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı

**“2009-2013-CÜ İLLƏRDƏ AZƏRBAYCAN RESPUBLİKASININ ALİ TƏHSİL SİSTEMİNDƏ İSLAHATLAR ÜZRƏ DÖVLƏT PROQRAMI”NIN TƏSDİQ EDİLMƏSİ BARƏDƏ AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

Azərbaycan Respublikasının ali təhsil sisteminin Avropa təhsil məkanına inteqrasiyası proseslərinin sürətləndirilməsi, ali təhsilin məzmununun Bolonya prinsiplərinə uyğun qurulması, ölkə iqtisadiyyatının inkişaf meyillərinə müvafiq olaraq yüksək hazırlıqlı kadrlara tələbatın ödənilməsi, həmçinin əhaliyə müasir standartlar səviyyəsində ali təhsil almaq imkanı yaradan səmərəli ali təhsil sisteminin formalaşdırılması məqsədi ilə

**QƏRARA ALIRAM:**

1. “2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı” təsdiq edilsin.

2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

***İlham Əliyev***
***Azərbaycan Respublikasının Prezidenti***
***Bakı şəhəri, 22 may 2009-cu il.***

---

Azərbaycan Respublikası Prezidentinin
2009-cu il “ 22 ” may tarixli 295 nömrəli
Sərəncamı ilə təsdiq edilmişdir

**2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı**

## 1. Ümumi əsaslar

### 1.1. Giriş

Bütün dövrlərdə cəmiyyətin tərəqqisi bilavasitə təhsilin inkişafından və onun əhəmiyyətinin düzgün qiymətləndirilməsindən asılı olmuşdur. Cəmiyyətin tələbatı təhsilin inkişafını sürətləndirmiş, elmi və texnoloji nailiyyətlər isə təhsil sistemi qarşısında həlli vacib olan daha mürəkkəb vəzifələr qoymuşdur. Qloballaşmanın geniş vüsət aldığı hazırkı mərhələdə, informasiya cəmiyyətində sosial-iqtisadi fəaliyyət sahələrindəki rəqabətin gücləndiyi, habelə təbii resursların tədricən tükəndiyi bir vaxtda təhsilin rolu artmaqdadır. Birləşmiş Millətlər Təşkilatı XXI əsri “təhsil əsri” elan etmişdir. Yüksək intellektə malik insan kapitalının formalaşmasında, davamlı inkişafa zəmin yaradan güclü iqtisadiyyatın qurulmasında xüsusilə ali təhsilin rolu mühüm əhəmiyyət kəsb edir.

Müasir dünyada hər bir ölkənin uğurlu gələcəyi həmin ölkədə təhsilin səviyyəsi ilə müəyyən olunur. Təcrübə göstərir ki, təbii sərvətlərin bolluğu dövlətin inkişafının əsas göstəricisi deyil, başlıcası, bu sərvətlərin cəmiyyətin hərəkətverici qüvvəsi olan insan kapitalına çevrilməsini təmin etməkdir. Bu, indiki mərhələdə təhsil sisteminin ən zəruri vəzifəsidir. ABŞ, Yaponiya, Cənubi Koreya və digər inkişaf etmiş ölkələr malik olduqları maddi resurslardan daha çox təhsil sisteminin yetişdirdiyi insan kapitalından böyük gəlirlər əldə etmişlər. Bu ölkələrdə inkişafa təsir göstərən amillər içərisində təhsilin çəkisi əhəmiyyətli dərəcədə yüksək olub təxminən 70 faiz təşkil edir.

Hal-hazırda dünyada aşağıdakı inkişaf meylləri müşahidə olunmaqdadır:

- cəmiyyətin inkişaf tempinin sürətlənməsi, siyasi və sosial seçim imkanlarının genişlənməsi;
- informasiya cəmiyyətinə keçid, ünsiyyət və dözümlülük amillərinin vacib əhəmiyyət kəsb etməsi, mədəniyyətlərarası əlaqələrin miqyasının genişlənməsi;
- yeni nəsildə müasir təfəkkürün formalaşmasını tələb edən və yalnız beynəlxalq əməkdaşlıq çərçivəsində həll edilə bilən qlobal problemlərin sayının artması;
- iqtisadiyyatın dinamik inkişafı, rəqabətin güclənməsi, sadə əmək sferasının məhdudlaşması, mütəmadi olaraq peşə ixtisasının artırılmasını və yenidən hazırlanmasını tələb edən ciddi struktur dəyişikliyi;
- gənclərin və yaşlı nəslin təhsilinin artırılması nəticəsində formalaşan insan kapitalının rolunun yüksəlməsi;
- təhsilin ölkənin aparıcı dövlətlər sırasına daxil olmasını təmin edən əsas faktor olması;
- vətəndaşların xaricdə təhsil almasının dəstəklənməsi.

Bütün bu amillər respublikada ali təhsil sahəsində islahatların istiqamətlərinin, milli maraqları əks etdirməklə, qeyd olunan tendensiyalara uyğun müəyyənləşdirilməsi zərurətini yaradır.

## 1.2. Mövcud vəziyyət

Azərbaycan Respublikasında ali təhsilin tədris proqramlarını həyata keçirən, 34-ü dövlət və 15-i qeyri-dövlət olmaqla 49 ali təhsil müəssisəsi fəaliyyət göstərir.

Ali təhsil müəssisələrinin bakalavr pilləsində hazırda 128650, magistratura pilləsində isə 7940 tələbə təhsil alır. Dövlət ali təhsil müəssisələrində tələbələrin təlim-tərbiyəsi ilə 22427 nəfər professor-müəllim heyəti məşğul olur. Onların 1000-dən çoxu elmlər doktoru, 6 minə qədəri dosentdir.

Ali məktəblərdə 121 fakültə, 688 kafedra, 100-ə qədər elmi-tədqiqat laboratoriyası və 4 elmi-tədqiqat institutu mövcuddur.

Ali məktəblərin kitabxanalarında 20 milyon nüsxədən ibarət kitab fondu vardır.

Son illərdə təhsilin maliyyələşdirilməsi sahəsində ciddi irəliləyişə nail olunmuşdur. Belə ki, yalnız dövlət büdcəsindən bu sahəyə ayrılan ümumi xərclər 2004-cü ildəki 308,2 milyon manatdan 2008-ci ildə 1165,8 milyon manatadək artmışdır. Bu göstəricilər ali təhsil üzrə müvafiq olaraq 20,4 milyon manatdan 100,7 milyon manata qədər yüksəlmişdir. Bununla yanaşı digər mənbələrdən də ali təhsilə kifayət qədər vəsait daxil olur.

Son beş ildə təhsilə qoyulan investisiya da kifayət qədər artmışdır. Əgər 2005-ci ildə təhsilə 8,3 milyon investisiya yönəldilmişdirsə, bu rəqəm 2008-ci ildə 223,5 milyon təşkil etmişdir.

Ötən əsrin 90-cı illərinin əvvəllərindən Azərbaycanda təhsil sahəsində islahatlar haqqında bir çox müzakirələr aparılsa da, islahatın konsepsiyası, həyata keçirilmə mexanizmi olmadığı üçün bu istiqamətdə işlər sistemli, planlı şəkildə aparılmamış və epizodik xarakter daşımışdır. Yalnız 1999-cu ildə Azərbaycan Respublikası Prezidenti tərəfindən "Azərbaycan Respublikasının təhsil sahəsində İslahat Proqramı" təsdiq olunduqdan sonra bütün təhsil sistemində, o cümlədən ali təhsil pilləsində islahatların məqsədyönlü və planauyğun aparılmasına başlanılmışdır.

Həmin Proqrama müvafiq olaraq digər pillələrdə olduğu kimi ali təhsildə də struktur dəyişiklikləri aparılmış, müəssisələrin şəbəkəsi optimallaşdırılmış, mütəxəssis hazırlığının strukturuna yeni ixtisaslar əlavə olunmuşdur.

Təhsil müəssisələrinə xeyli müstəqillik və geniş səlahiyyətlər verilmiş, bir sıra ali məktəblər öz fəaliyyətlərini özünüidarəetmə prinsipi əsasında qurmuşdur. Həmin ali məktəblərin dövlət büdcəsindən ayrıca sətirlə maliyyələşdirilməsi 2001-ci ildən etibarən həyata keçirilir.

"Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 2000-ci il 13 iyun tarixli Fərmanına müvafiq surətdə mülkiyyət formasından və tabeliyindən asılı olmayaraq, təhsilin keyfiyyətinə nəzarət səlahiyyəti Azərbaycan Respublikasının Təhsil Nazirliyinə verildikdən və ali və orta ixtisas təhsili müəssisələrinin attestasiyası və akkreditasiyasını tənzimləyən müvafiq normativ-hüquqi akt təsdiq edildikdən sonra qısa müddət ərzində təhsilin keyfiyyətinə nəzarət mexanizmi yaradılmış, ilk mərhələdə tələbələrin biliyinin qiymətləndirilməsi üzrə yeni mexanizmin tətbiqinə eksperiment şəklində başlanılmışdır. Hazırda bu sistem, demək olar ki, bütün ali təhsil müəssisələrini əhatə edir.

Müasir tələblərə cavab verən, dərin təfəkkürə, pedaqoji və metodik ustalığa malik olan müəllim kadrları hazırlığı daim diqqət mərkəzində olmuşdur. Belə ki, Azərbaycan Respublikasının Təhsil Nazirliyi Dünya Bankı ilə birgə Təhsil Sektorunun İnkişafı Layihəsi çərçivəsində "Azərbaycan Respublikasında fasiləsiz pedaqoji təhsil və müəllim hazırlığının konsepsiya və strategiyası"nı hazırlamış, həmin sənəd 2007-ci ildə təsdiq edilmişdir. Konsepsiya təsdiq edildikdən sonra pedaqoji kadr hazırlığının məzmununda islahatların aparılması işinə başlanılmışdır.

Müasir dövrdə Avropa ölkələri təhsil sistemlərinin inteqrasiyası və ümumavropa ali təhsil məkanının formalaşdırılması xüsusi aktuallıq kəsb edir. Bu baxımdan həyata keçirilən tədbirlər arasında Bolonya prosesi önəmli yer tutur.

Azərbaycan 2005-ci ildə Bolonya prosesinə qoşulmuş və bununla da faktiki olaraq ali təhsildə aparılacaq islahatların konturları müəyyənləşdirilmişdir. Bolonya Bəyannaməsinin müddəalarını həyata keçirmək üçün 2006-2010-cu illəri əhatə edən müvafiq Tədbirlər Planı hazırlanıb təsdiq edilmişdir. Tədbirlər Planına uyğun olaraq, "Bakalavr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu" təsdiq edilmiş və buna müvafiq istiqamətlər üzrə yeni dövlət təhsil standartları hazırlanmışdır. Beynəlxalq təcrübəyə əsaslanaraq hazırlanmış bu standartlarda fənlərin sayı, auditoriya saatlarının miqdarı (4140 saatdan orta hesabla 3305 saata qədər) azaldılmış, seçmə fənlərə ayrılan saatların miqdarı 10 faizdən 20 faizədək artırılmış və tələbələrin müstəqil işinə xeyli vaxt ayrılmışdır.

Azərbaycanın Bolonya prosesinə qoşulması ilə əlaqədar ali təhsildə kredit sisteminin tətbiqinə zərurət yaranmışdır. Bu sistemin tətbiqi ilə bağlı hüquqi normativ bazanın yaradılması istiqamətində bir çox xarici ölkələrin təcrübəsi öyrənilmiş, "Ali təhsil müəssisələrində kredit sistemi ilə tədrisin təşkili barədə nümunəvi Əsasnamə" hazırlanıb təsdiq edilmiş, görüləcək işlərin həcminin genişliyi nəzərə alınaraq, ilkin mərhələdə bir neçə ali məktəbdə eksperiment şəklində kredit sisteminin tətbiq olunması qərara alınmışdır. 2006-2007-ci tədris ilində 10 ali məktəbdə başlanan eksperiment 2007-2008-ci tədris ilində artıq 21 dövlət ali məktəbini əhatə etmişdir.

Bundan əlavə xarici ölkələrdə təhsil alanların diplomlarının Azərbaycanda tanınması üzrə müvafiq tədbirlər həyata keçirilmişdir. Belə ki, "Xarici dövlətlərin ali təhsil sahəsində ixtisaslarının tanınması və ekvivalentliyinin müəyyən edilməsi (nostrifikasiyası) qaydaları"na uyğun olaraq Azərbaycan Respublikasının Təhsil Nazirliyində Daimi Komissiya yaradılmışdır.

Görülmüş işlərlə yanaşı ali təhsil sahəsində hələ də öz həllini tapmayan çox ciddi problemlər mövcuddur. Respublikada ali təhsilin kütləviliyi sahəsində həm inkişaf etmiş ölkələrlə, həm də MDB ölkələri ilə müqayisədə gerilik müşahidə olunur. Son illərdə hər 10 min vətəndaşa inkişaf etmiş ölkələrdən ABŞ-da – 445, Böyük Britaniyada – 276, Almaniyada – 240, Yaponiyada – 233, MDB ölkələrindən Qazaxıstanda – 510, Rusiyada – 449, Qırğızıstanda – 447,

Moldovada – 351, Gürcüstanda – 321, Ermənistanda – 304, Tacikistanda – 192, Azərbaycanda isə – 156 tələbə düşür. Həmin ölkələr üzrə əhalinin sayına tələbə nisbəti isə (faizlə) Rusiyada – 5,1; Qazaxıstanda – 5,0; Gürcüstanda – 3,2; Ermənistanda – 3,0; Azərbaycanda – 1,6; Özbəkistanda – 1,1 və Türkmənistanda 0,2 faiz təşkil edir. Bu rəqəmlər ali təhsil sisteminin təşkilində kifayət qədər həllini gözləyən problemin olduğunu göstərir.

Respublikanın ali təhsil sisteminə cəlb olunmuş insan resurslarında da müəyyən disproporsiya aradan qaldırılmalıdır. Belə ki, Qara dəniz regionu ölkələri üzrə ali təhsildə çalışan işçilər və tələbələrin sayı arasında olan nisbət uyğun olaraq Gürcüstanda – 25,5, Türkiyədə – 23,8, Moldovada – 21,3, Albaniyada – 19,0, Yunanıstanda – 16,8, Ermənistanda – 11,7, Rusiyada – 10,1 faiz olduğu halda Azərbaycanda bu rəqəm 7,3 faiz təşkil edir.

Son illərdə ali təhsilin işəgötürənlərlə əlaqəsinin genişləndirilməsi, xüsusilə də onların həm qanunvericilik və həm də təhsil proqramlarının inkişafı sahəsində iştirakı xeyli qənaətbəxşdir. Lakin sosial-praktiki və iqtisadi sahədə mövcud vəziyyətin təhlili göstərir ki, ali təhsilin məzmunu ilə tələb olunan biliklər arasındakı uyğunsuzluq dünyada qlobal böhran səviyyəsi kimi xarakterizə olunur, hətta bir çox inkişaf etmiş ölkələrdə ən yaxşı halda kadr hazırlığı iqtisadiyyatın keçmiş mərhələsinə uyğun aparılır.

Bununla əlaqədar ali təhsil sisteminin inkişafı üçün bütün mümkün innovasiya potensialını və resursları zəruri inkişaf istiqamətlərinə səfərbər etmədən mövcud vəziyyətin dəyişdirilməsinə nail olmaq qeyri-mümkündür.

Bu baxımdan təhlil göstərir ki, respublikanın ali təhsil sistemində aşağıdakı problemlər mövcuddur:

- kadr hazırlığı strukturu əmək bazarının tələbatını tam ödəmir;
- elmi-tədqiqatların nəticələri ali təhsilə zəif inteqrasiya olunur;
- ali təhsilə ayrılan vəsaitlər səmərəsiz istifadə olunur;
- ali təhsil müəssisələri şəbəkəsi təkmil deyil;
- ali məktəblərin kadr potensialı və müəllimlərin ixtisasartırma təhsili müasir tələblərə cavab vermir;
- ali məktəb tələbələri və məzunlarının hazırlıq səviyyəsi onların dünya təhsil məkanına çevik inteqrasiyasına imkan vermir;
- ali və orta ixtisas təhsili istiqamətlərinin və magistr proqramlarının siyahılarının təsdiqindən xeyli müddət keçdiyinə görə onların yeniləşdirilməsinə ehtiyac duyulur;
- istiqamətlər üzrə standartların yeniləşməsinə baxmayaraq, tədris planlarında hələ də lüzumsuz qeyri-ixtisas fənləri mövcuddur;
- bakalavr və magistratura pillələrində bir çox ixtisaslar üzrə dərsliklər çatışmır, bəzən isə məzmunca köhnəlmiş ədəbiyyatdan istifadə edilir;
- tələbələrin tədris olunan fənləri mənimsəmə səviyyəsini müəyyənləşdirən monitorinq mexanizmi olmadığından onların biliyinin qiymətləndirilməsində qeyri-obyektivliyə yol verilir;
- pedaqoji təhsilin məzmunu ümumtəhsil məktəblərinin tələbatı ilə kifayət qədər uzlaşmır;
- magistr hazırlığının məzmununa və səviyyəsinə qoyulan minimum dövlət tələblərinin strukturu təkmilləşdirilməli və buna müvafiq istiqamətlər üzrə dövlət təhsil standartları hazırlanmalıdır;
- yeni pedaqoji təlim texnologiyaları ləng işlənilir, mövcud texnologiyalar isə tədris prosesinə zəif tətbiq olunur;
- ali məktəblərdə kadr hazırlığında informasiya-kommunikasiya texnologiyalarından, fəal interaktiv təlim metodlarından kifayət qədər istifadə edilmir;
- kadr hazırlığı üzrə uzunmüddətli, elmi cəhətdən əsaslandırılmış proqnozlaşdırma mexanizmi yoxdur;
- ali məktəb müəllimlərinin peşəkarlıq səviyyəsini müəyyən edən mexanizm yaradılmamışdır;
- ali məktəblərdə dərs yükünün optimal müəyyənləşdirilməməsi, azsaylı qrup və birləşmələrin yaradılması, dərs yükünün minimal hədlə müəyyən edilməsi tələbə-müəllim nisbətinin dünyadakı göstəricilərə uyğunlaşdırılmasına imkan vermir;
- ali məktəblərin maddi-texniki bazası (tədris laboratoriyalarının təchizatı, tədris prosesini təmin edən cihaz və avadanlıqlarla təminatı və s.) müasir tələblərə cavab vermir;
- ali məktəb kitabxanaları və onların təminatı günün tələblərinə cavab vermir, elektron kitabxanaların və dərsliklərin yaradılması işi çox ləng aparılır;
- ali təhsil müəssisələrinin fəaliyyətini tənzimləyən normativ sənədlər kredit sisteminin tətbiqi ilə bağlı müvafiq sənədlərə uyğunlaşdırılmamışdır.

### 1.3. Dövlət Proqramının məqsədi

“2009-2013-cü illərdə Azərbaycan Respublikasının ali təhsil sistemində islahatlar üzrə Dövlət Proqramı”nın (bundan sonra - Dövlət Proqramı) əsas məqsədi ölkənin ali təhsilinin Avropa təhsil məkanına inteqrasiyası, onun məzmununun Bolonya prosesinin prinsiplərinə uyğun qurulması, cəlbedici və rəqabət qabiliyyətliliyinin təmin edilməsi, ölkə iqtisadiyyatının inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara yaranan tələbatın ödənilməsi, habelə informasiya cəmiyyətinin və biliklərə əsaslanan iqtisadiyyatın tələblərinə uyğun olaraq kadr potensialının yaradılması, əhalinin müasir tələblərə cavab verən ali təhsil almaq imkanlarının təmin edilməsi üçün iqtisadi və sosial baxımdan səmərəli ali təhsil sisteminin formalaşdırılmasıdır.

### 1. 4. Dövlət Proqramının icrasının əsas istiqamətləri

Dövlət Proqramı çərçivəsində aşağıdakı istiqamətlər üzrə islahatların aparılması müəyyənləşdirilir:

- Bolonya Bəyannaməsinə və beynəlxalq təhsil təcrübəsinə uyğun olaraq, ali təhsilin normativ hüquqi bazasının yeniləşdirilməsi: burada nəzərdə tutulacaq müddəalar ali təhsil sisteminin Avropa və mütərəqqi dünya ölkələrinin ali təhsil məkanına inteqrasiyası üçün hüquqi baza yaratmalıdır;

- ali təhsilin məzmununun və təlim texnologiyalarının təkmilləşdirilməsi: burada ilk növbədə ali təhsil ixtisaslarının Avropa ixtisas təsnifatına və əmək bazarının tələblərinə uyğunlaşdırılması, tədris planı və proqramlarının, təhsil resurslarının, müasir fənn proqramlarının, yeni təlim və informasiya texnologiyalarını təmin edən elmi-metodiki tövsiyələrin hazırlanması və tətbiqi nəzərdə tutulmalıdır;

- ali təhsil müəssisələrinin strukturunun və bütövlükdə onun idarə olunması sisteminin müasir tələblər baxımından modernləşdirilməsi: ilk növbədə idarəçilik strukturunun əsaslı təkmilləşdirilməsi, kadr istehlakçılarının ali təhsil müəssisələrinin idarə olunmasında və inkişafında iştirakını təmin edən strukturların yaradılması, aidiyyəti müəssisələri baza kimi müəyyənləşdirməklə sıx əlaqələrin yaradılması (məsələn, müəllim hazırlığı sahəsində məktəb və təhsil şöbələri ilə, digər sahələrdə isə müvafiq istehsal sahələri ilə əlaqələrin qurulması), tələbə özünüidarə sisteminin inkişafı nəzərdə tutulmalıdır;

- ali təhsildə keyfiyyətin təmin olunması: ali təhsil müəssisələrinin akkreditasiyasına beynəlxalq ekspertlərin cəlb edilməsi təmin olunmalı, universitetlərin reytinqini müəyyənləşdirən sistem yaradılmalı, tələbələrin biliyinin qiymətləndirilməsi sistemi Avropa Kredit Transfer Sisteminin tələblərinə uyğunlaşdırılmalı, dövlət proqramının özəl ali təhsil müəssisələrinə də şamil olunması məqsədi ilə müvafiq tədbirlər görülməli, ali təhsil müəssisələrinin fəaliyyətinin işıqlandırılmasında müasir informasiya texnologiyalarından geniş istifadə olunmaqla tam şəffaflıq təmin edilməlidir;

- ali təhsildə kadr hazırlığı: bu məqsədlə elmi, elmi-pedaqoji və pedaqoji kadrların attestasiyasının, müəllim fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırılma mexanizmlərinin, ali təhsil müəssisələrində keyfiyyəti təmin edən menecment sisteminin, əmək bazarının monitorinqinin və işədüzəltmə mərkəzlərinin, professor-müəllim heyətinin ölkə daxilində və xaricdə treninqlərinin təmin olunma sistemlərinin yaradılması nəzərdə tutulmalıdır;

- ali təhsil müəssisələrində elmi-tədqiqat işlərinin müasir tələblərə uyğun qurulması: ölkənin elmi-tədqiqat institutlarının ali təhsil müəssisələri ilə birgə fəaliyyəti, onların potensialından kadr hazırlığı sistemində istifadə olunması, bəzilərinin müvafiq ali təhsil müəssisələri tərkibinə verilməsi məsələlərinə baxılması nəzərdə tutulmalıdır;

- ali təhsilin maddi-texniki bazasının müasirləşdirilməsi: universitet kampuslarının (şəhərciklərinin, təhsil infrastrukturlarının) qurulması, ali təhsil müəssisələrində informasiya-kommunikasiya texnologiyaları mərkəzlərinin, tədris, elmi-tədqiqat, təcrübə-sınaq laboratoriyalarının, resurs, treninq və digər mərkəzlərinin yaradılması, onların müvafiq tədris-metodiki və elmi avadanlıqlarla təchizatı, elektron kitabxanaların yaradılması nəzərdə tutulmalıdır;

- ali təhsilin iqtisadiyyatının yeni mexanizmlərinin yaradılması və tətbiqi: burada ali təhsil müəssisələrinin maliyyələşdirilməsinin yalnız dövlət büdcəsindən deyil, təhsil alan subyektlərin maliyyəsi hesabına həyata keçirilməsi, alternativ maliyyələşmə mənbələrinin formalaşdırılması sisteminin yaradılması tədbirləri nəzərdə tutulmalıdır.

**1.5. Dövlət Proqramının maliyyə mənbələri**

Dövlət Proqramının maliyyə təminatını dövlət büdcəsinin vəsaitləri və Azərbaycan Respublikasının qanunvericiliyinə zidd olmayan digər mənbələr təşkil edir.

**1.6. Gözlənilən nəticələr**

Dövlət Proqramının yerinə yetirilməsində gözlənilən nəticələr aşağıdakılardır:

- ali təhsilin normativ hüquqi bazası yeniləşəcək;
- ali təhsildə beynəlxalq ixtisas təsnifatına uyğun mütəxəssis hazırlığına keçiləcək;
- beynəlxalq standartlara uyğun kadr hazırlığı təmin ediləcək;
- ali təhsil sisteminin tədris-metodiki təminatı müasirləşəcək;
- beynəlxalq tələblərə uyğun müasir tipli elektron kitabxanalar və elektron versiyalı dərslik fondu yaradılacaq;
- interaktiv təlimi təmin edən yeni metodikalar hazırlanacaq;
- tədris prosesində informasiya texnologiyalarının tətbiqinin elmi-metodiki təminatı yaradılacaq;
- Bolonya prosesinin tətbiqini təmin edən tədris-metodiki vəsaitlər hazırlanacaq;
- ali təhsildə Bolonya Bəyannaməsinin müddəalarına uyğun vahid terminlər tətbiq ediləcək;
- kredit sisteminin tətbiqi ilə bağlı yeniliklərin yayılması və mənimsənilməsi təmin olunacaq;
- ali təhsilin keyfiyyəti yüksələcək;
- ömür boyu təhsil almaq üçün fasiləsizlik təmin olunacaq;
- ali təhsil sistemi beynəlxalq tələblərə cavab verən tədris sənədləri ilə təmin ediləcək;
- ali təhsil üzrə tədris sənədlərinin beynəlxalq ekspertizası təmin olunacaq;
- ali təhsil müəssisələrinin optimal şəbəkəsi yaradılacaq;
- ali təhsil müəssisələrinin davamlı inkişafı təmin ediləcək;
- universitetlərin idarə edilməsində tələbələrin geniş iştirakı təmin olunacaq;
- ali təhsilin idarə olunmasında elektron hökumət qurulacaq;
- ali təhsilin beynəlxalq təhsil məkanına inteqrasiyası sürətlənəcək;
- beynəlxalq tələblərə cavab verən qiymətləndirmə və nəzarət mexanizmi yaradılacaq;
- beynəlxalq ekspertizadan keçmiş yeni akkreditasiya qaydaları yaradılacaq;
- kadr istehlakçılarının təhsilin keyfiyyətinə nəzarət prosesində bilavasitə iştirakı təmin olunacaq;
- ali təhsildə tədrisin təşkili Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğun qurulacaq;
- müəllim və tələbə mübadiləsi sahəsində ali məktəblərin imkanları genişlənəcək;

- tələbə və mütəxəssislərin diplomlarının və müvafiq təhsil sənədlərinin qarşılıqlı tanınması asanlaşacaq;
- ali təhsil müəssisələrinin fəaliyyəti haqqında məlumatlanma prosesi müasir texnologiyalar əsasında qurulacaq;
- tədris prosesində tələbələrin fəal iştirakı təmin olunacaq;
- elmi və elmi-pedaqoji kadrların fəaliyyətini qiymətləndirən attestasiya mexanizmi yeniləşdiriləcək;
- dünya təcrübəsinə və Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun yeni ixtisas təsnifatı hazırlanacaq;
- ali təhsil müəssisələrinin müasir tələblərə cavab verən kadr potensialı formalaşacaq və yeni rotasiya sistemi yaradılacaq;
- ümumtəhsil sistemi peşəkar kadrlarla təmin olunacaq;
- iqtisadiyyat, sosial və digər sahələr rəqabətə davamlı kadrlarla təmin ediləcək;
- ali məktəb məzunlarının əmək bazarında işlə təmin olunma imkanları artacaq;
- ali təhsil müəssisələrində funksional idarəetmə modelini həyata keçirən menecerlər heyəti formalaşdırılacaq;
- ali təhsil müəssisələrinin elmi və elmi-pedaqoji potensialından səmərəli istifadə təmin olunacaq;
- ali təhsil müəssisələrində elmi-pedaqoji kadrların beynəlxalq nüfuzu artacaq;
- ali təhsil müəssisələrinin elmi-tədqiqat sahəsində beynəlxalq əməkdaşlıq imkanları genişlənəcək;
- elmi-tədqiqat işlərinin nəticələrinin tətbiqi ali təhsil müəssisələrinin əlavə maliyyə mənbəyinə çevriləcək;
- müasir tipli universitet şəhərcikləri salınacaq, təhsil infrastrukturu yaxşılaşacaq;
- təhsilin məzmununu müasirləşdirmək üçün maddi-texniki baza təminatı yaradılacaq;
- ali təhsil müəssisələrinin beynəlxalq informasiya-kommunikasiya şəbəkəsinə qoşulması təmin ediləcək;
- ali təhsil müəssisələri müasir tipli avadanlıqlarla təchiz olunacaq;
- müasir tipli informasiya-kommunikasiya texnologiyalarının tətbiqi və zəruri avadanlıqlarla təchizatı ali təhsil müəssisələrində idarəetmənin səmərəliliyini artıracaq;
- ali təhsil subyektlərinin zəruri informasiya əldə etmək imkanları genişlənəcək və sürətlənəcək;
- ali təhsil müəssisələrinə yeni maliyyə mənbələri cəlb olunacaq;
- ali təhsil müəssisələrinin maliyyələşdirilmə mexanizmi təkmilləşdiriləcək;
- Bolonya Bəyannaməsinin müddəalarının tətbiqi sürətləndiriləcək və buraya əlavə maliyyə resursları cəlb olunacaqdır.

.

**2. Proqramın həyata keçirilməsi üzrə Tədbirlər Planı**

| № | İstiqamətlər üzrə tədbirlər | İcraçılar | İcra müddəti (illər üzrə) |
|---|---|---|---|
| **Ali təhsilin normativ hüquqi bazası** | | | |
| 2.1. | Ali təhsilin mövcud normativ hüquqi bazasının Bolonya Bəyannaməsinin müddəalarına və beynəlxalq təcrübəyə uyğunlaşdırılması | Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2009-2013 |
| 2.2. | Ali məktəblərdə elmi-tədqiqat işlərinə investisiyaların və büdcədənkənar vəsaitlərin cəlb olunmasını təmin edən normativ hüquqi bazanın yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2009-2010 |
| 2.3. | Dövlət ali təhsil müəssisələri üzrə nümunəvi ştat normativlərinin hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2009-2010 |
| **Ali təhsilin məzmunu və təlim texnologiyaları** | | | |
| 2.4 | Ali təhsil pillələri (bakalavriat və magistratura) üzrə ixtisasların (proqramların) beynəlxalq təcrübəyə, Avropa ixtisas kataloquna və əmək bazarının tələblərinə uyğun yeni təsnifatının hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi | 2009-2010 |
| 2.5 | İxtisaslar (proqramlar) üzrə Avropada tətbiq olunan Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılmış yeni dövlət təhsil standartlarının hazırlanması | Təhsil Nazirliyi | 2009-2010 |
| 2.6. | Tədris plan və proqramlarının, təhsil resurslarının (dərsliklərin, dərs vəsaitlərinin və s.) hazırlanması, zəruri hallarda alınması, onların tərcüməsi və tətbiqi | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.7. | Baza və əlavə təhsil (ixtisasartırma və yenidənhazırlanma) üçün tədrisin innovasiya metodikalarının, materiallarının və tətbiqi proqram təminatının hazırlanması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.8. | Zəruri ədəbiyyatların və interaktiv tədris kurslarının elektron versiyasının hazırlanması | Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları | 2009-2013 |

| | | | |
|---|---|---|---|
| | | Nazirliyi, ali təhsil müəssisələri | |
| 2.9. | Məsafədən (distant) təhsilin təşkili | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.10. | Tədris prosesində informasiya texnologiyalarının tətbiqi üçün elmi-metodiki tövsiyələrin hazırlanması | Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası | 2009-2013 |
| 2.11. | Bolonya Bəyannaməsinin əsas prinsiplərinin tətbiqi ilə bağlı müasir informasiya və elmi-metodiki təminatın (Təhsil Nazirliyinin xüsusi veb-portalının, dərslik, dərs və elmi-metodiki vəsaitlərin və s.) yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.12. | Bolonya prosesinin əsas sənədlərinin mütəmadi tərcüməsi, nəşri və ali məktəblər arasında yayılmasının təmin edilməsi və müvafiq məcmuənin nəşrinin təşkili | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2010 |
| 2.13. | Ali təhsil sisteminin dünya və Avropa məkanına inteqrasiyası ilə bağlı hüquqi normativ və tədris sənədlərində istifadə ediləcək əsas anlayışların və terminlərin unifikasiyasının təmin olunması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.14. | Ali məktəblərdə kredit sisteminin tətbiqi ilə bağlı tədbirlərin (simpozium, konfrans, seminar, treninqlər və s.) həyata keçirilməsi | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.15. | Müasir fənn proqramlarının hazırlanması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.16. | Fasiləsiz təhsili təmin edən zəruri tədris-metodiki sənədlərin hazırlanması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.17. | Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində kurrikulum və qiymətləndirmə mərkəzlərinin yaradılması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.18. | Ali təhsil üzrə tədris sənədlərinin beynəlxalq ekspertizasının keçirilməsi ilə bağlı müvafiq tədbirlərin görülməsi | Təhsil Nazirliyi, Xarici İşlər Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.19. | Kadr hazırlığının məzmununun əmək bazarının tələblərinə uyğunlaşdırılması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.20. | Bolonya Bəyannaməsinin əsas müddəalarının tətbiqi ilə bağlı maarifləndirmə işini gücləndirmək və müsbət təcrübənin yayılmasını təmin etmək məqsədi ilə dövri xəbərlər məcmuəsinin nəşrinin təşkili | Təhsil Nazirliyi | 2009 |
| **Ali təhsilin strukturu və idarə olunması** | | | |
| 2.21. | Ali təhsil müəssisələri şəbəkəsinin optimallaşdırılması və onların kadr hazırlığı strukturunun Azərbaycan Respublikasının sosial-iqtisadi inkişafının perspektiv tələblərinə və regionların inkişafına dair Dövlət Proqramına uyğunlaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi,İqtisadi İnkişaf Nazirliyi | 2009-2010 |
| 2.22. | Ali təhsil müəssisələrinin inkişafına yardım edən strukturların (himayədarlar şurası, məzunlar assosiasiyası, inkişaf fondu və s.) yaradılmasının dəstəklənməsi | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi,Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2010 |
| 2.22.1. | Ali təhsil müəssisələrinin mövcud idarəetmə strukturunun dünyanın qabaqcıl universitetlərinin strukturuna uyğunlaşdırılması ilə əlaqədar təkliflərin hazırlanması | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət | 2010 |

| | | | |
|---|---|---|---|
| | | qurumları, ali təhsil müəssisələri | |
| 2.22.2. | Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində müvafiq struktur dəyişikliyi hesabına uyğun ixtisasları cəmləşdirən müasir tipli qurumların (biznes məktəbləri, hüquq məktəbləri, təbiət elmləri məktəbləri, kompüter məktəbləri və s.) yaradılması ilə bağlı təkliflərin hazırlanması | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi,Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2011 |
| 2.22.3. | Ali məktəb və biznes subyektlərinin əlaqələr sisteminin strateji menecment prinsiplərinə əsaslanan iqtisadi və hüquqi bazasının yaradılması | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2013 |
| 2.23. | Ayrı-ayrı ali təhsil müəssisələrinin strateji inkişaf proqramının hazırlanması | Tabeliyində ali təhsil müəssisələri olan dövlət qurumları, ali təhsil müəssisələri | 2009 |
| 2.24. | Rektorlar Şurasının fəaliyyətinin təkmilləşdirilməsi | Təhsil Nazirliyi | 2009-2013 |
| 2.25. | Ali təhsil müəssisələrinin idarə edilməsində tələbə özünüidarəetmə qurumlarının geniş iştirakına şəraitin yaradılması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.26. | Ali təhsildə elektron idarəetmə sisteminin (“Elektron Universitet”) qurulması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 2013 |
| 2.26.1. | Ali təhsil sistemində qarşılıqlı informasiya şəbəkəsinin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 2013 |
| 2.26.2. | Ali təhsilin informasiya məkanının inkişafını əhatə edən proqram təminatının yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 2011 |
| 2.26.3. | İnternetə çıxışı təmin edən vahid nəql şəbəkənin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi | 2011 |
| 2.27. | Ali təhsilin vahid informasiya bazasının yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Rabitə və İnformasiya Texnologiyaları Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları | 2009-2013 |
| 2.28. | Ali təhsil müəssisələrinin beynəlxalq təhsil assosiasiyaları və təşkilatlarına üzvlüyünün, onların qabaqcıl ali təhsil müəssisələri ilə birlikdə beynəlxalq proqramlar əsasında mütəxəssis hazırlığı aparmasının təmin olunması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2013 |
| **Ali təhsildə keyfiyyətin təmin olunması** | | | |
| 2.29. | Ali təhsil müəssisələrinin fəaliyyətinin qiymətləndirilməsi və keyfiyyətə nəzarət mexanizminin təkmilləşdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2009-2011 |
| 2.29.1. | Ali təhsil müəssisəsinin özünüqiymətləndirmə modelinin formalaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2010 |
| 2.29.2. | Ali təhsil müəssisəsinin reytinqini müəyyənləşdirən mexanizmin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2010 |
| 2.30. | Ali təhsil müəssisələrinin akkreditasiya sisteminin təkmilləşdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi | 2009 |
| 2.30.1. | Ali təhsil müəssisələrinin akkreditasiyası ilə bağlı normativ hüquqi bazanın təkmilləşdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2009-2010 |
| 2.30.2. | Təhsil Nazirliyinin strukturunda ali təhsil müəssisələrinin akkreditasiyasını aparan qurumun yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, aidiyyəti dövlət qurumları | 2009 |
| 2.30.3. | Ali təhsil müəssisələrinin akkreditasiyasına müvafiq beynəlxalq qurum və müstəqil ekspertlərin cəlb olunması | Nazirlər Kabineti, Təhsil Nazirliyi və aidiyyəti dövlət qurumları | 2009-2010 |
| 2.31. | İşəgötürənlərin, məzunların və valideynlərin təhsilin | Nazirlər Kabineti, Təhsil Nazirliyi, | 2010-2011 |

| | | | |
|---|---|---|---|
| | keyfiyyətinə nəzarət sisteminin normativ hüquqi bazasının yaradılması | Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları | |
| 2.32. | Ali təhsildə tədrisin təşkilinin Avropa Kredit Transferi Sisteminin tələblərinə uyğunlaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2011 |
| 2.32.1. | Ali təhsil müəssisələrində tətbiq olunan kredit sisteminin Avropa Kredit Transferi Sistemi tələblərinə tam uyğunlaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2011 |
| 2.32.2. | Tələbələrin biliyinin qiymətləndirilmə sisteminin Avropa Kredit Transferi Sistemi tələblərinə uyğunlaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2011 |
| 2.32.3. | Azərbaycanın bütün ali təhsil müəssisələrində kredit sisteminin tətbiqi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, Ədliyyə Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, ali təhsil müəssisələri | 2009-2011 |
| 2.33. | Ali təhsil sistemində müəllim və tələbə mobilliyinə şəraitin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.34. | Ali təhsil haqqında sənədlərin qarşılıqlı tanınması mexanizminin təkmilləşdirilməsi (Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun diploma əlavənin yeni formasının yaradılması) | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi, ali təhsil müəssisələri | 2010 |
| 2.35. | Ali təhsil müəssisələrinin fəaliyyəti haqqında ictimai hesabat sisteminin yaradılması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2010 |
| 2.36. | Tədris prosesində tələbələrin fəallığının artırılmasını təmin edən motivasiyalar sisteminin yaradılması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2010 |
| 2.37. | Ali təhsil müəssisələrinin professor-müəllim heyətinin tədris yükünün optimallaşdırılması barədə təkliflərin hazırlanması | Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2009 |
| | **Ali təhsildə kadr hazırlığı** | | |
| 2.38. | Ali təhsil sisteminin kadr potensialının Avropa standartlarına uyğun formalaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.38.1. | Elmi-pedaqoji kadr hazırlığı ixtisaslarının monitorinqinin aparılması və Bolonya Bəyannaməsinin prinsiplərinə uyğun yeni təsnifatın hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2010 |
| 2.38.2. | Yeni təsnifata uyğun ayrı-ayrı ixtisasların məzmununu müəyyənləşdirən standartların hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2010 |
| 2.38.3. | İxtisaslar üzrə elmi-pedaqoji kadrlara olan tələbatın müəyyənləşdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və | 2009-2013 |

| | | | |
|---|---|---|---|
| | | Əhalinin Sosial Müdafiəsi Nazirliyi | |
| 2.38.4. | Elmi və elmi-pedaqoji kadrların attestasiyasının yeni mexanizminin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2010 |
| 2.38.5. | Ölkədə və xaricdə tələbata uyğun magistr, doktor və tibb sahəsində rezident hazırlığının təmin edilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.38.6. | Mövcud qanunvericilikdə nəzərdə tutulmuş qaydada zəruri sahələr üzrə xaricdə professor-müəllim heyətinin ixtisasartırma və yenidən hazırlanmasının təşkili | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.38.7. | Ali məktəblərə elmi-pedaqoji kadrların seçilib yerləşdirilməsinin yeni qaydalarının hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.38.8. | Müəllimlik fəaliyyətinə başlamaq üçün sertifikatlaşdırma mexanizminin yaradılması və tətbiqi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2010 |
| 2.38.9. | Gənc mütəxəssislərin ucqar rayonlarda çalışmasını stimullaşdıran proqramın həyata keçirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.38.10. | Ümumtəhsil məktəbləri müəllimlərinin müasir tələblərə uyğun təkmilləşdirilmə sisteminin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, İqtisadi İnkişaf Nazirliyi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.39. | İqtisadiyyatın kadr potensialının yeni tələblərə uyğun formalaşdırılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.39.1. | Kadr tələbatını müəyyənləşdirmək məqsədi ilə əmək bazarının monitorinqinin təşkili | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.39.2. | Kadr hazırlığına olan tələbatı müəyyənləşdirən metodikanın hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.39.3 | Tələbələrin təcrübə keçmə prosesini təkmilləşdirmək məqsədi ilə ali məktəb və kadr istehlakçılarının qarşılıqlı | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf | 2009-2013 |

| | | | |
|---|---|---|---|
| | münasibətlərini tənzimləyən mütərəqqi və çevik mexanizmin yaradılması | Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | |
| 2.39.4. | İstehsalatda çalışan kadrların ali təhsil sistemində ixtisasartırma və yenidən hazırlanmasının təşkili məqsədi ilə mövcud şəbəkə və ştat vahidləri çərçivəsində treninq mərkəzlərinin yaradılması və mövcud olanların təkmilləşdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.39.5. | Dövlət və biznes strukturlarının sifarişləri əsasında məqsədli mütəxəssis hazırlığı mexanizminin işlənib hazırlanması və tətbiqi | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Dövlət Statistika Komitəsi, Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi | 2009-2013 |
| 2.40. | Ali məktəblərdə əmək bazarının monitorinqi və mövcud ştat vahidləri çərçivəsində işədüzəltmə mərkəzlərinin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri | 2010-2011 |
| 2.41. | Ali təhsil üzrə idarəetməni təmin edən menecer sisteminin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.42. | Məzun yarmarkalarının təşkili | Ali təhsil müəssisələri | 2009-2013 |
| **Elmi-tədqiqat işləri** | | | |
| 2.43. | Elmi-tədqiqat işlərinin ali təhsil müəssisələrinin yönümünə uyğunlaşdırılması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları | 2009-2013 |
| 2.43.1. | Ali təhsil müəssisələrində aparılan elmi-tədqiqat işlərinin monitorinqi, onların kadr hazırlığı və əmək bazarının tələblərinə uyğunlaşdırılması | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları | 2009-2013 |
| 2.43.2. | Elmi-tədqiqat işlərinin nəticələrinin tədris prosesində və istehsalatda tətbiqinin təşkili | Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları | 2009-2013 |
| 2.44. | Ali təhsil müəssisələrində elmi-tədqiqat işlərini inkişaf etdirmək və onların beynəlxalq nüfuzlu jurnallarda dərc olunmasını stimullaşdırmaq məqsədi ilə Təhsil Nazirliyinin Təhsil Problemləri İnstitutunun elmi araşdırmalar fondunun yaradılması | Təhsil Nazirliyi və Maliyyə Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi | 2011 |
| 2.45. | Elmi-tədqiqat işlərinin nəticələrinin kommersiyalaşdırılması mexanizminin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi və Maliyyə Nazirliyi | 2010-2011 |
| 2.46. | Tələbələrin elmi-tədqiqat işinə cəlb olunmasını təmin edən yeni mexanizmin hazırlanması | Təhsil Nazirliyi | 2009-2010 |
| 2.47. | Ali təhsil müəssisələri, Azərbaycan Milli Elmlər Akademiyası və sahə institutları arasında koordinasiyanın gücləndirilməsi | Təhsil Nazirliyi, Azərbaycan Milli Elmlər Akademiyası, aidiyyəti dövlət qurumları | 2009-2013 |
| 2.48. | Ali məktəblərdə elmi-tədqiqat işlərinin dövlət sifarişi formasında təşkilinin hüquqi bazasının yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, Ədliyyə Nazirliyi | 2009-2013 |
| 2.49. | Ali təhsil müəssisələri tərkibində olan elmi-tədqiqat institutlarının və mərkəzlərin inkişaf etdirilməsi | Nazirlər Kabineti, Təhsil Nazirliyi | 2009-2013 |
| **Təhsilin maddi-texniki bazası və strukturu** | | | |
| 2.50. | Müasir tipli universitet şəhərciklərinin yaradılması barədə təkliflərin hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009-2013 |
| 2.50.1. | Universitetlərin maddi-texniki bazasının monitorinqinin aparılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009-2013 |
| 2.50.2. | Bakının mərkəzində infrastruktur baxımından genişlənmə imkanları məhdud olan ali təhsil müəssisələri üçün şəhər kənarında universitet şəhərciklərinin qurulması ilə bağlı təkliflərin hazırlanması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, İqtisadi İnkişaf Nazirliyi, Maliyyə Nazirliyi | 2009-2013 |
| 2.51. | Mövcud təhsil proqramlarının müasirləşdirilməsi və | Təhsil Nazirliyi, ali təhsil | 2009-2013 |

| | | | |
|---|---|---|---|
| | yenilərinin hazırlanması üçün maddi-texniki təminatın təşkili | müəssisələri | |
| 2.52. | Ali təhsil müəssisələrində mövcud ştat vahidləri çərçivəsində informasiya-kommunikasiya texnologiyaları mərkəzlərinin yaradılması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2010-2011 |
| 2.53. | Mövcud büdcə və büdcədənkənar xüsusi vəsaitlərdən daha səmərəli istifadə olunmasına nəzarətin gücləndirilməsi, ayrılmış vəsaitin təhsilin nüfuzunun və maddi-texniki bazasının yaxşılaşdırılmasına yönəldilməsinə nail olunması | Nazirlər Kabineti, Təhsil Nazirliyi, tabeliyində ali təhsil müəssisələri olan digər dövlət qurumları, Maliyyə Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| 2.54. | Ali təhsil müəssisələrində elektron kitabxanaların yaradılması | Təhsil Nazirliyi, ali təhsil müəssisələri | 2009-2013 |
| **Ali təhsilin iqtisadiyyatı** | | | |
| 2.55. | Ali təhsilin maliyyələşdirilməsi mexanizmlərinin təkmilləşdirilməsi | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2012-2013 |
| 2.55.1. | Ali təhsilin maliyyələşdirilməsi ilə bağlı mövcud normativ sənədlərin monitorinqi və təhlili | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2012-2013 |
| 2.55.2. | Ali təhsilə müxtəlif maliyyə mənbələrinin cəlb edilməsinə imkan yaradan təkliflərin hazırlanması | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2012-2013 |
| 2.55.3. | Ali təhsil müəssisələrinin inkişaf etdirilməsi məqsədi ilə qanunvericiliklə qadağan olunmayan digər mənbələr hesabına vəsaitin əldə edilməsinə imkan verən təkliflərin hazırlanması | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2012-2013 |
| 2.55.4. | Adambaşına maliyyələşdirmə sahəsində beynəlxalq təcrübənin öyrənilməsi və tətbiq edilməsi | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2009-2013 |
| 2.56. | Mövcud qanunvericilik çərçivəsində ali təhsil müəssisələrinin maliyyələşdirilməsində yeni modelin yaradılması barədə təkliflərin hazırlanması | Nazirlər Kabineti, İqtisadi İnkişaf Nazirliyi, Təhsil Nazirliyi, Maliyyə Nazirliyi | 2013 |